**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQRAR İSLAHATLAR DÖVRÜNDƏ ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA KƏND TƏSƏRRÜFATININ ƏRAZİ TƏŞKİLİ VƏ OPTİMALLAŞDIRILMASI YOLLARI

İxtisas: 5401.01 – İqtisadi coğrafiya

Elm sahəsi: Coğrafiya

İddiaçı**: Qafqaz Məhəmmədhəsən oğlu Ağabalayev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu "İqtisadi və siyasi coğrafiya" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: coğrafiya elmləri doktoru, dosent
**Zakir Namin oğlu Eminov**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, professor
**Ağazeynal Alı oğlu Qurbanzadə**

coğrafiya üzrə fəlsəfə doktoru
**Sahilə Əbiş qızı Allahverdiyeva**

coğrafiya üzrə fəlsəfə doktoru
**Xatirə Cahangir qızı Məhərrəmova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.23 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: coğrafiya elmləri doktoru, dosent
**Məhəmməd Abdu oğlu Abduyev**

_______________

Dissertasiya şurasının elmi katibi: coğrafiya üzrə fəlsəfə doktoru,
dosent **Zaur Tahir oğlu İmrani**

_______________

Elmi seminarın sədri: texnika elmləri doktoru, dosent
**Əhməd Şirin oğlu Məmmədov**

_______________

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Kənd təsərrüfatı regionların təsərrüfat strukturunda əhəmiyyətli yer tutmaqla yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasında, kənd əhalisinin məşğulluğunda böyük rol oynayır. Bu sahə ölkə əhalisinin böyük əksəriyyətinin məskunlaşdığı kəndlərin iqtisadi bazasını təşkil edir.

Müstəqillik illərində aparılan iqtisadi islahatlar kənd təsərrüfatının sahə və ərazi strukturunun ciddi şəkildə dəyişməsinə səbəb olmuşdur. Uzun illər ərzində regionlarda əsas ixtisaslaşma sahələri hesab olunan, əhalinin məşğulluğunda və gəlirlərinin formalaşmasında mühüm rol oynayan sahələrin rolu azalmış və ya tamamilə sıradan çıxmışdır. Bu sahələr gündəlik tələbatı ödəyən, az vaxtda gəlir gətirən sahələrlə əvəz edilmişdir. Nəticədə kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yüngül və yeyinti sənayesi obyektlərinin fəaliyyətində ciddi problemlər yaranmışdır.

Kənd təsərrüfatında becərilən bitkilərin məhsuldarlığının aşağı səviyyəsi toplanan məhsulların da az olması ilə yanaşı, bəzi məhsullara olan tələbatı da ödəmir, kənd təsərrüfatı məhsullarının ixrac potensialı böyük olsa da, bu imkanlardan istifadə edilmir. Sahənin maddi-texniki bazası hələlik zəifdir, mineral gübrələr, ziyanvericilərə qarşı mübarizə vasitələri ilə təmin olunmada problemlər qalır, ixtisaslı kadrların potensialından tam olaraq və bütün sahələrdə istifadə edilmir. Bu problemlərin həlli üçün qanunvericilik bazası yaradılması ilə yanaşı, dövlətin maliyyə-texniki dəstəyi və yerlərdə tədbirlər görülməsi, onların elmi-nəzəri əsaslarının işlənib hazırlanması tələb olunur.

Kənd təsərrüfatında aparılan islahatların nəticələrinin yüksəldilməsi, onun səmərəli ərazi təşkilinin təmin edilməsi üçün elmi-tədqiqat işlərinin aparılması, hər bir ərazidə daha çox məhsuldarlığa malik olan və çox gəlir gətirən sahələrin inkişaf etdirilməsi vacibdir.

Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşən Şəki-Zaqatala iqtisadi rayonu ölkənin mühüm kənd təsərrüfatı regionlarından biridir. İqtisadi rayonun sahəsi 8,84 min km$^2$, əhalisinin sayı 630,4 min nəfərdir (01.01.2021). Şəki-

Zaqatala ölkə ərazisinin 10,2%-ni əhatə edir, əhalisinin 6,2%-i burada cəmlənir. İqtisadi rayonun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala inzibati rayonları daxildir.

İqtisadi rayonda qərzəkli meyvələrin, tütünün, dənli bitkilərin becərilməsi üçün əlverişli şərait vardır. Bura ölkənin ikinci rütubətli subtropik bölgəsi olaraq efir yağlı bitkilərin, çayın becərilməsində mühüm yer tutmuşdur. Lakin aparılan aqrar islahatlar tütün, çay, efir yağlı bitkilərin yığımında ciddi böhrana səbəb olmuşdur. Əkin sahələrinin əsas hissəsini hazırda dənli bitkilər tutur. Bu isə kənd əhalisinin məşğulluğuna ciddi təsir etməklə yanaşı, torpaqlardan səmərəli istifadə edilməsinə də öz mənfi təsirini göstərir. İqtisadi rayonda kənd təsərrüfatının səmərəli ərazi təşkili yollarının müəyyən edilməsi, strateji məhsullar olan tütün, çay, qərzəkli meyvələr və regionun təbii-iqlim şəraitinə, məhsuldar torpaqlarına daha çox uyğun olan və yüksək məhsuldarlığa malik digər bitkilərin becərilməsinin təşkili, onların məhsuldar növlərinin alınması və əkilməsi, bu tədbirlərin elmi-nəzəri əsaslarının işlənilməsi vacib vəzifələrdir.

Kənd təsərrüfatının ikinci mühüm sahəsi olan heyvandarlıq da ərzaq təhlükəsizliyinin təminatında xüsusi rol oynayır. Şəki-Zaqatalada yaylaq və qışlaqların olması, dənli və yem bitkiləri əkinlərinin geniş sahə tutması heyvandarlığın yem bazasının yaradılmasında əhəmiyyətli rol oynayır. Bununla yanaşı, məhsuldar heyvan cinslərinin sayının artırılması, otlaq-tövlə tipli heyvandarlığın inkişafı, onların məhsullarının emalını həyata keçirən müəssisələrin ərazi təşkili məsələlərinin tədqiqi öz aktuallığını saxlayır. Ona görə Şəki-Zaqatalada kənd təsərrüfatının ərazi təşkilinin öyrənilməsi mühüm elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edir.

İqtisadi-coğrafi tədqiqatlarda kənd təsərrüfatının öyrənilməsi mühüm yer tutur. XX əsrin ikinci yarısından sonra respublikada ümumilikdə kənd təsərrüfatının, həm də onun ayrı-ayrı sahələrinin öyrənilməsi istiqamətində tədqiqatlar aparılmışdır. Bu tədqiqatlarda kənd təsərrüfatının inkişafına təsir göstərən təbii-coğrafi şəraitin qiymətləndirilməsi aparılmış, onun sahələrinin inkişaf istiqamətləri, ixtisaslaşma sahələrinin regionlar üzrə paylanması öyrənilmiş, səmərəli ərazi təşkili və gəlirlərin artırılması sahələrində təhlillər

aparılmışdır. Son dövrlərdə iqtisadi rayonlar üzrə kənd təsərrüfatının iqtisadi-coğrafi problemlərinin öyrənilməsi sahəsində tədqiqatlara xüsusi diqqət verilmişdir.

Müstəqillik illərində torpaq mülkiyyətçiliyinin dəyişməsi, torpaqların paylanması və şəxsi mülkiyyətə verilməsi onlardan istifadə edilməsinin elmi-nəzəri əsaslarının işlənib hazırlanmasını vacib vəzifə kimi qarşıya qoyur. Torpaqlardan səmərəli istifadə edilməsi, bitkilərin məhsuldarlığının artırılması, suvarma və kollektor-drenaj sisteminin yaradılması zəruriliyi, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması yollarının müəyyən edilməsi və bu istiqamətlərdə tədqiqatlar aparılması vacibdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın aparılmasında **məqsəd** Şəki-Zaqatala iqtisadi rayonunda aqrar islahatlardan sonra kənd təsərrüfatının sahə və ərazi strukturunda baş verən dəyişikliklərin elmi-nəzəri cəhətdən öyrənilməsi və bu istiqamətdə təkliflərin işlənib hazırlanmasıdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- iqtisadi rayonda kənd təsərrüfatının inkişafına zəmin yaradan təbii-coğrafi şərait və sosial-iqtisadi bazadan səmərəli istifadə edilməsi yollarının müəyyənləşdirilməsi;
- ölkədə ərzaq təhlükəsizliyinin təminatında kənd təsərrüfatının əhəmiyyətinin müəyyən edilməsi, bu sahədə olan problemlərin öyrənilməsi, onların həlli yollarının işlənib hazırlanması;
- aqrar islahatlar prosesində kənd təsərrüfatının sahə və ərazi strukturunda baş verən dəyişikliklərin, bu proseslərin kənd təsərrüfatı məhsullarının istehsalına təsirinin, bu sahədə olan mənfi meyillərin və onların aradan qaldırılması yollarının müəyyənləşdirilməsi;
- kənd təsərrüfatında məhsul istehsalının artırılmasında intensiv üsulların tətbiqinin əsaslandırılması, bu sahədə məhsuldar bitki növləri və heyvan cinslərindən istifadənin genişləndirilməsi, məhsul istehsalının artırılması yollarının müəyyənləşdirilməsi;
- iqtisadi rayonda kənd məskunlaşmasının inkişafında və iqtisadi bazasının formalaşmasında kənd təsərrüfatının rolunun əsaslandırılması, bu sahədə məhsuldarlığın və əhalinin gəlirlərinin artırılması yollarının öyrənilməsi;

- kənd təsərrüfatının inkişafı, səmərəli ərazi təşkili və bu sahədə iqtisadi rayonun rolunun yüksəldilməsində qanunvericilik aktları və dövlət dəstəyinin əhəmiyyətinin göstərilməsi, bu istiqamətdə fəaliyyətin genişləndirilməsinin əsaslandırması;
- ASK-nın mühüm tərkib hissəsi olan yüngül və yeyinti sənayesi sahələrinin inkişafında kənd təsərrüfatının rolunun əsaslandırılması, bu sahələrin kənd təsərrüfatı məhsullarının istehsalında əhəmiyyətinin müəyyən edilməsi.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində tarixi-coğrafi və sistemli yanaşma, statistik təhlil, müqayisə, kartoqrafik, çöl tədqiqatları, rayonlaşdırma, riyazi analiz və s. üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Aqrar islahatlardan sonra kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklər, onların kənd təsərrüfatı məhsullarının istehsalı və əhalinin məşğulluğuna təsiri, bu sahədə yaranmış problemlərin aradan qaldırılması yolları;
2. Ölkənin ərzaq təhlükəsizliyinin təminatında kənd təsərrüfatının rolunun artırılması yollarının müəyyən edilməsi, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi və dövlət dəstəyinin genişləndirilməsi yolları;
3. Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının sahə və ərazi strukturunun formalaşmasına təbii-coğrafi şəraitin və sosial-iqtisadi bazanın təsiri, onlardan səmərəli istifadənin əsas istiqamətlərinin müəyyən edilməsi;
4. Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında məhsuldar toxum növləri və heyvan cinslərindən istifadəsinin əsas yolları, yerli şəraitə uyğun növlərin alınması problemləri.

**Tədqiqatın elmi yeniliyi:**

- kənd təsərrüfatının öyrənilməsinin iqtisadi-coğrafi tədqiqatlarda yeri müəyyən edilmiş, bu sahənin inkişafı üçün təbii-coğrafi şəraitdən və iqtisadi bazadan səmərəli istifadə edilməsi yolları əsaslandırılmışdır. Onlar sahənin inkişafı üçün əlverişli potensiala malikdir;

- müstəqillik illərində Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının strukturunda baş verən dəyişikliklərin iqtisadi-coğrafi təhlili aparılmışdır. Torpaqların paylanması, onların kiçik paylara bölünməsi, fermer təsərrüfatlarının zəif maddi-texniki bazası ixtisaslaşma sahələrinin rolunun azalmasına gətirib çıxarmışdır;
- müəyyən edilmişdir ki, aparılan aqrar islahatlar iqtisadi rayonda kənd təsərrüfatının strukturunun ciddi şəkildə dəyişməsinə gətirib çıxarmış, strateji sahələr olan tütünçülük, baramaçılıq, efir yağlı bitkilərin becərilməsi tənəzzülə uğramış, onların yerini dənli bitkilər və kartof əkinləri tutmuşdur;
- kənd təsərrüfatının inkişafı və məhsul istehsalının artırılmasında, ərzaq təhlükəsizliyinin təminatında qəbul edilmiş Dövlət Proqramlarının rolu öyrənilmiş, bu istiqamətdə həyata keçirilməsi zəruri olan tədbirlər işlənib hazırlanmışdır;
- kənd təsərrüfatında məhsul istehsalının artırılmasında məhsuldar bitki növlərindən istifadə edilməsinin əhəmiyyəti, onların yerli şəraitə uyğun növlərdən alınmasının vacibliyi əsaslandırılmışdır. Aparılan müqayisəli təhlillər göstərir ki, regionla aqroparkların təşkili yeni təsərrüfat idarə edilməsi münasibətlərinin yaradılmasına, məhsuldarlığın yüksəldilməsinə, məhsul istehsalının artırılmasına imkan vermişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində kənd təsərrüfatı coğrafiyası, kənd məskunlaşması, torpaqşünaslıq sahələrində tədqiqatlar aparan Azərbaycan və xarici ölkə alimlərinin əsərlərindən, onlarda olan elmi-nəzəri müddəalardan geniş istifadə edilmişdir. Eyni zamanda, ölkədə kənd təsərrüfatının inkişafı sahəsində olan qanunlar, qərarlar, sərəncamlarda olan müddəalar metodoloji baza kimi qəbul edilmişdir.

Dissertasiyada aparılan təhlillərin nəticələri, verilən təkliflər və tövsiyələr Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının inkişafı istiqamətində tədbirlərin işlənib hazırlanması üçün əhəmiyyətlidir. Aparılan tədqiqatların nəticələri, istifadə edilən üsullar ölkənin digər iqtisadi rayonlarında kənd təsərrüfatının ərazi təşkilinin öyrənilməsində baza kimi istifadə edilə bilər.

Dissertasiyada toplanmış materiallar və əldə edilən nəticələr ali məktəblərdə tədris zamanı, həmçinin kənd təsərrüfatı sahəsində tədqiqatlar üçün mühüm mənbə rolunu oynayır.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işinin hazırlanması zamanı aparılan tədqiqatın əsas müddəaları aşağıdakı konfranslarda və seminarlarda müzakirə edilmişdir:

"Coğrafiya: nəzəriyyə praktika və innovasiya" mövzusunda konfrans. 2015-ci il, Bakı, Azərbaycan; "Aqrar elmin və təhsilin innovativ inkişafı" mövzusunda Beynəlxalq elmi-praktik konfrans. 23-24 oktyabr 2015-ci il, Gəncə, Azərbaycan; "Azərbaycan regionlarının coğrafi problemləri" mövzusunda respublika elmi-praktiki konfransı, 2016-cı il, Bakı, Azərbaycan; "Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri" mövzusunda elmi konfrans, 2016-cı il, Bakı, Azərbaycan; «Сервису и туризму – инновационное развитие» материалы VIII международной научно-практической конференции, 25 марта 2016 г., Санкт-Петербург, Россия; «География и геоэкология на службе науки и инновационного образования» материалы XI Международной научно-практической конференции, 22 апрел 2016 г., Красноярск, Россия; "Su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 15-16 mart 2017-ci il, Bakı, Azərbaycan; "Bazar iqtisadiyyatı şəraitində torpaq idarəçiliyi: nailiyyətlər və müasir çağırışlar" mövzusunda konfrans, 2018-ci il, Bakı, Azərbaycan; "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" Beynəlxalq elmi konfrans, 2019-cu il, Bakı, Azərbaycan.

Tədqiqat işinin mövzusuna dair 17 elmi məqalə çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, 4 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 156 səhifədir. İş 6 şəkil, 29 cədvəl, 106 adda ədəbiyyat siyahısından ibarətdir. Giriş – 6 səhifə, I fəsil – 34 səhifə, II fəsil – 42 səhifə, III fəsil – 36 səhifə, IV fəsil – 26 səhifə, nəticə – 3 səhifə,

ədəbiyyat siyahısı – 8 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 34773 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliklər, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi verilmişdir.

Dissertasiya işinin birinci fəsli "**Kənd təsərrüfatının öyrənilməsinin nəzəri-metodiki əsaslarına**" həsr olunmuşdur. Burada ilk növbədə ***müstəqillik illərində kənd təsərrüfatının inkişafının əsas istiqamətləri*** öyrənilir. XX əsrin sonunda aparılan aqrar islahatlar kənd təsərrüfatının sahə strukturuna və məhsulların becərilməsinə mənfi təsir göstərmiş, bir çox sahələrdə, o cümlədən pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq kimi sahələrdə ciddi tənəzzül yaranmışdır. Əvəzində taxıl, bostan-tərəvəz, kartof əkinləri xeyli genişləndirilmişdir.

Aqrar islahatlar dövründə yaradılan ailə-kəndli və fermer təsərrüfatlarında istehsal edilən məhsullar yüngül və yeyinti sənayesində emal müəssisələrini xammal ilə təmin edilməsinə imkan vermədi. Ona görə emal müəssisələrinin çoxu öz fəaliyyətini dayandırmışdır. 2018-ci ildə ölkədə kənd təsərrüfatı müəssisələrinin sayı 1666, fermer təsərrüfatlarının sayı 910-yə yaxın olmuşdur[1].

Aparılan aqrar islahatlardan sonra kənd təsərrüfatına yararlı torpaqlar kiçik ailə-kəndli təsərrüfatları arasında bölünmüşdür. Bunun nəticəsində ölkədə istehlak xarakterli kənd təsərrüfatı formalaşmışdır. Bu sahədə istehsal edilən məhsullar əsasən daxili tələbatın ödənilməsinə sərf olunur. Dissertasiyada kənd təsərrüfatının əsas sahələri üzrə əkinlərin paylanması, toplanan məhsulların dinamikası, regionlar üzrə nisbət təhlil olunur. Göstərilir ki, hazırda becərilən sahələrin yarısından çoxunu taxıl əkinləri tutur. Lakin toplanan məhsullar daxili tələbatı tam ödəyə bilmir və idxal edilir.

---

[1] Azərbaycanın kənd təsərrüfatı - 2019. – Bakı: DSK, –2020. – s. 67.

Ölkənin heyvandarlıq təsərrüfatlarında da irəliləyişlər baş verir. Bu sahə tamamilə şəxsi təsərrüfatlara əsaslanır, mal-qara və qoyunların sayı xeyli artmışdır. Bunun nəticəsində son vaxtlarda kənd təsərrüfatı məhsullarının istehsalında heyvandarlıq qabaqcıl yer tutur. Bu sahənin məhsulları olan ət və süd istehsalı üçün yeni komplekslər təşkil edilir, məhsul istehsalı artır. Məhsuldar heyvan cinslərinin alınması bu sahədə istehsalın artmasına imkan verir.

Dissertasiyanın bu bölməsində ***kənd təsərrüfatının öyrənilməsinin əhəmiyyəti və iqtisadi-coğrafi tədqiqatlarda yeri*** öyrənilir. Torpaq və su ehtiyatlarının məhdud olduğu şəraitdə kənd təsərrüfatının inkişaf yollarının davamı olaraq tədqiq edilməsi vacibdir. Bu tədqiqatlarda ölkənin düzənlik və dağətəyi ərazilərində olan torpaq-iqlim ehtiyatlarından istifadə edilməsi, təbii-coğrafi şəraitin potensial imkanları müəyyən edilir, daha çox gəlir gətirən bitkilərin əkilməsi şəraiti öyrənilir. Bu zaman yerli şəraitə uyğun məhsuldar toxum növləri və heyvan cinslərinin istifadə edilməsi daha çox səmərə verir. Onların alınması üçün ixtisaslı kadrlar yetişdirilməsi, müasir avadanlıqlar, texniki vasitələrlə təchiz edilmiş aqrar elmi mərkəzlərin yaradılması tələb olunur. Kənd təsərrüfatının ərazi strukturunun öyrənilməsi zamanı təbii-iqlim şəraiti və torpaqların yayılmasının regional fərqlərinin müəyyən edilməsi lazım gəlir. Bu amilləri nəzərə almaqla kənd təsərrüfatının ixtisaslaşmasını təşkil etmək, məhsuldarlığı yüksəltmək, təbii-iqtisadi potensialdan istifadə etmək olar.

Kənd təsərrüfatının öyrənilməsi zamanı onun maddi-texniki baza ilə təminatının yaxşılaşdırılması yollarının müəyyən edilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu amil sahənin intensivləşdirilməsinin əsas göstəricilərindən biri olmaqla yanaşı, məhsulların becərilməsi, onlara aqrotexniki qulluq göstərilməsi, toplanması və daşınması üçün də mühüm əhəmiyyət kəsb edir. Bu amil kənd təsərrüfatının yüksək məhsuldarlığına imkan verir, az sayda işçi qüvvəsi ilə məhsullar becərilir, toplanır və daşınır. Dissertasiyada kənd təsərrüfatı məhsulları istehsalçılarının maşın və avadanlıqlarla təminatı üçün görülən işlər təhlil edilir. Aparılan təhlillər göstərir ki, kənd təsərrüfatının bu sahədə təminatı yüksəlir, lakin burada nisbi göstəricilər hələlik aşağıdır. Məsələn, 1000 ha əkin sahəsinə düşən

maşınların sayı son vaxtlar xeyli artsa da, XX əsrin 90-cı illəri səviyyəsindən aşağı olaraq qalır. 1990-cı ildə 1000 ha əkin sahəsinə 26,7 traktor, 8,0 taxılyığan, 28,0 qarğıdalıyığan, 13,9 pambıqyığan olmuşdur. 2019-cu ildə ölkədə bu göstəricilər 1000 ha-ya görə müvafiq olaraq traktor üzrə 20,4, taxılyığan üzrə 3,7, qarğıdalıyığan üzrə 0,2, pambıqyığan üzrə 4,8 səviyyəsinə enmişdir[2].

Kənd təsərrüfatının intensiv inkişafının əsas amillərindən biri olan mineral gübrələrlə təminat da hələlik azdır. Lakin bu sahədə görülən tədbirlər genişlənir. Kənd təsərrüfatı məhsullarının ixrac potensialı hələlik zəifdir. Ona görə bitkiçilik və heyvandarlıq məhsullarının ölkə üzrə ixracda payı 4,7% təşkil edirsə, idxalda xüsusi çəkisi 9,7%-dir[3].

Hələ də ölkədə əhalinin ərzaq məhsullarına tələbatını ödəmək üçün külli miqdarda buğda, düyü, mal və toyuq əti, balıq məhsulları, kərə yağı, çay, tütün, kolbasa və s. məhsulları idxal etmək lazım gəlir. Daxili istehsalın aşağı səviyyədə olması, əhalinin alıcılıq qabiliyyətinin zəifliyi səbəbindən ərzaq məhsullarının hər nəfərə düşən istehlak kəmiyyətləri göstərir ki, Azərbaycanda ət, ət məhsulları, bostan-tərəvəz, yumurta, şəkər, bitki yağları üzrə istehlak xeyli aşağıdır.

Təsərrüfatın aparıcı sahələrindən biri olan ***kənd təsərrüfatının öyrənilməsi iqtisadi-coğrafi tədqiqatlarda mühüm yer tutur***. Əhalinin məskunlaşdığı bütün ərazilərdə təbii-coğrafi şəraitdən asılı olaraq onun müxtəlif sahələri inkişaf edir və bu sahənin tədqiqi üçün tədbirlər görülür. Azərbaycanda da kənd təsərrüfatının öyrənilməsi sahəsində davamlı olaraq tədqiqatlar aparılır. XX əsrin əvvəllərində təsərrüfat sahələrinin öyrənilməsi sahəsində ən sanballı mənbə M.Baharlının “Azərbaycan” əsəridir (1921). Burada ölkənin regionlarının öyrənilməsi sahəsində genişmiqyaslı tədqiqatlar aparılmışdır. Onlar həm respublika miqyasında elmi işlərdə öz əksini tapır, həm də konkret rayonları əhatə edir. Birinci qrupa aid Ə.M.Hacızadə, A.A.Nadirov, B.T.Nəzirova, A.A.Qurbanzadə, Z.N.Eminov, N.Ə.Paşayev, N.N.Allahverdiyev, N.H.Əyyubov,

[2] Azərbaycanın kənd təsərrüfatı - 2019. – Bakı: DSK, – 2020. – s. 70.
[3] Azərbaycan rəqəmlərdə - 2020. – Bakı: DSK, – 2021. – s. 175.

Z.T.İmrani və b.-nın elmi işləri vardır. R.H.Məmmədov, Z.T.Zakiryayeva, İ.Qasımov əsərlərində Şəki-Zaqatala iqtisadi rayonunda əhali və təsərrüfatın ərazi təşkilini tədqiq etməsi mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, müstəqillik illərində aparılan aqrar islahatların əsas nəticələri, onların kənd təsərrüfatı məhsulları istehsalının sahə və ərazi strukturunun dəyişməsində rolu, bu sahənin regionlar üzrə səmərəli ərazi təşkilinin əsas istiqamətlərinin müəyyən edilməsi, məhsuldarlığın artırılması üçün qarşıda duran problemlər, məhsul istehsalının artırılması üçün ixtisaslaşmış təsərrüfatlar və aqroparkların yaradılmasının əhəmiyyəti və s. istiqamətlərdə tədqiqatlar aparılması tələb olunur. Dissertasiyada bu sahədə Şəki-Zaqatala iqtisadi rayonu üzrə təhlillər aparılır.

Dissertasiyanın ikinci fəsli "**Kənd təsərrüfatının inkişafının təbii-coğrafi və sosial-iqtisadi əsaslarının öyrənilməsinə**" həsr olunur. ***Təbii-coğrafi şərait kənd təsərrüfatının inkişafında aparıcı rol*** oynayır və ixtisaslaşma istiqamətlərini müəyyən edir. Burada **relyef** şəraiti və aqroiqlim ehtiyatları mühüm əhəmiyyət kəsb edir. İqtisadi rayon ərazisində Böyük Qafqazın cənub ətəkləri, Qanıx-Əyriçay vadisi, Daşüz və Əmirvan silsilələri, Acınohur düzü əsas oroqrafik vahidlərdir. Mütləq hündürlük Qanıx-Əyriçay vadisində 600-700 m-dən Baş Qafqazın ən yüksək sahələrinə qədər dəyişir[4].

Regionda təsərrüfatın inkişafı üçün əlverişli ərazilər Qanıx-Əyriçay vadisində yerləşir. Bura regionun əsas məskunlaşma və kənd təsərrüfatı zonasıdır, məhsuldar torpaqlar əkinçilikdə istifadə olunur. Çayların gətirmə konuslarında yerləşən ərazilərin suvarılması üçün su ehtiyatları kifayət qədərdir, ərazi tam olaraq mənimsənilmişdir.

Şəki-Zaqatalada **iqlimin** yayda yağıntılı və isti keçməsi kənd təsərrüfatı işlərinin aparılması üçün əlverişli şərait yaradır. Qanıx-Əyriçay vadisində orta illik temperatur 10-14°C, 10°C-dən yuxarı orta sutkalıq temperaturlar cəmi 3800-4500°C, illik yağıntıların miqdarı 600 mm-dən 1000 mm-ə qədərdir. Dağların yamacları boyu

---

[4]Azərbaycan Respublikasının coğrafiyası. I c. Fiziki coğrafiya. – Bakı: Avropa, – 2015, –530 s.

yuxarı qalxdıqca yağıntıların miqdarı artır, Acınohurda 300-400 mm-ə qədər azalır[5].

Bol yağıntılar və yüksək dağlıq ərazilər olması çay şəbəkəsinin sıxlığına böyük təsir göstərir. Yayın yağıntılı keçməsi, qar örtüyü çayların yayda bolsulu olmasına, kənd təsərrüfatı suyuna olan ehtiyacların ödənilməsinə imkan verir, yeraltı sular kifayət qədərdir və istifadə olunur. Çaylarda tez-tez dağıdıcı sellər olur. Kiş, Şin, Katex, Kürmük, Dəmiraparan çaylarında belə sellərə daha çox rast gəlinir, təsərrüfat obyektlərinə, əkinlərə və əhaliyə ciddi ziyan vurur[6].

**Torpaqlar** kənd təsərrüfatı işlərinin aparılmasının əsasını təşkil edir. Əsas torpaq tiplərinə Qanıx-Əyriçay vadisində allüvial-çəmən, çəmən-meşə, Acınohur düzü və alçaq dağlarda boz, şabalıdı, dağ-qəhvəyi, Əyriçayın mənsəbində qara torpaqlar, dağların orta və yüksək sahələrində qəhvəyi və qonur dağ-meşə, daha yuxarıda dağ-çəmən torpaqlar aiddir[7].

***Torpaq ehtiyatlarından səmərəli istifadə edilməsi*** kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edir və başlıca vəzifələr sırasındadır. İqtisadi rayonda kənd təsərrüfatına yararlı torpaqlar rayonlar üzrə qeyri-bərabər paylanır. Buna rayonların sahəsi, relyef formalarının yayılması, təbii-coğrafi şərait ciddi təsir göstərir (şəkil).

İqtisadi rayonda kənd təsərrüfatın yararlı torpaqlar 391,4 min ha sahə tutur[8]. Onlar ərazinin 43,5%-nə yaxındır. Əkinlər kənd təsərrüfatına yararlı torpaqların 20,9%-ni, çoxillik əkinlər 4,4%-ni, örüş və otlaqlar 17,7%-ni təşkil edir. Regionda meşələr ərazinin 30,2%-ni, kənd təsərrüfatın yararsız sahələr 23,9%-ni əhatə edir[9].

---

[5] Климат Азербайджана. Под ред. Э.М.Шыхлинского и А.А. Мадатзаде. – Баку: АН Азербайджана, – 1968. – 342 с.

[6] Rüstəmov S.Q., Qaşqay R.M. Azərbaycan SSR su ehtiyatları. – Bakı: – 1978, – 184 s.

[7] Azərbaycan Respublikasının coğrafiyası. I c. Fiziki coğrafiya. – Bakı: – 2015, – 530 s.

[8] Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, 2013-cü il.

[9] Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, 2013-cü il



Şəkil. Kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edilməsi

Sosial-iqtisadi amillər kənd təsərrüfatının inkişaf istiqamətlərinin formalaşmasına ciddi təsir göstərir. ASK-ya daxil olan yüngül və yeyinti sənayesinin inkişafı kənd təsərrüfatı məhsullarına olan tələbatı davamlı olaraq artırır. Kənd təsərrüfatının inkişafında Meyvə-Tərəvəz Konservi kombinatı müəssisələri mühüm rol oynayır. Onlar Qəbələ, Balakən rayonlarında, şərab istehsalı Qəbələ və Şəkidə, fındıq emalı Qəbələ, Zaqatala, Qaxda, ət-süd emalı Şəki, Qəbələ, Zaqatalada fəaliyyət göstərir.

İqtisadi rayonun əhalisinin sayı 630,4 min nəfər, o cümlədən kənd əhalisinin sayı 455,2 min nəfərdir. Ölkənin ümumi əhalisinin 6,23%-i, kənd əhalisinin 9,56%-i burada yaşayır. Onlar 6 şəhər, 7 qəsəbə və 336 kənd məntəqəsində toplanır[10]. Regionda əhalisinin sayı 200 nəfərə qədər olan 55 kənd, 200 nəfərdən 1000 nəfərə qədər olan 151 kənd, 1000-2000 nəfər arasında olan 69 kənd məntəqəsi mövcuddur. Əhalisinin sayı 2000 nəfərdən çox olan məntəqələr məskunlaşmada xüsusi rol oynayır. Əhalisi 5000 nəfərdən çox olan 12 kənd məntəqəsində 81,6 min nəfər əhali vardır[11]. Onlar yaxın

[10] Azərbaycanın əhalisi - 2020, Bakı: DSK, 2021, s. 71, 76.

[11] Azərbaycan Respublikası əhalisinin 2009-cu il siyahıyaalmasının yekunları. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. – Bakı: – DSK, – 2010. – 629 s.

vaxtlarda qəsəbələrə çevrilə bilər, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin tikilməsi üçün böyük iqtisadi və demoqrafik potensiala malikdir.

Dissertasiyanın üçüncü fəsli **iqtisadi rayonda kənd təsərrüfatının müasir ərazi təşkilinə və sahə strukturunda baş verən dəyişikliklərə** həsr edilmişdir. İqtisadi rayonda ölkənin kənd təsərrüfatı məhsullarının 8,5%-i, o cümlədən bitkiçilik məhsullarının 9,3%-i, heyvandarlıq məhsullarının 7,8%-i istehsal edilir, onların əsas hissəsini (50,1%) bitkiçilik verir. Regionda ölkə üzrə taxıl məhsullarının 15,3%-i, meyvə və giləmeyvənin 12,7%-i, kartofun 5,5%-i, tərəvəzin 5,2%-i, bostan məhsullarının 4,2%-i toplanır[12].

Aparılan təhlillər göstərir ki, hazırda əkinlərin sahə strukturunda dənli və dənli paxlalı bitkilərin əkinləri, o cümlədən buğda, kartof, tərəvəz əkinləri, meyvə və giləmeyvə bağları üstünlük təşkil edir. Lakin bu sahələrin məhsulları daxili tələbatı ödəyir, emal müəssisələrinin yaradılması imkanları məhduddur. Kənd təsərrüfatı kənd məntəqələrinin iqtisadi bazası rolunu oynaya bilmir. Ona görə kənd əhalisi zəif templə artır, miqrasiyalar yüksəkdir.

*Taxılçılıq* - kənd təsərrüfatı əkinləri arasında aparıcı yeri tutur, onların da çox hissəsini buğda əkinlərinin payına düşür. Lakin bu sahədə maddi-texniki baza zəifdir, mineral gübrələr az istifadə edilir, yüksək məhsuldar toxum növləri alınmır. Ona görə məhsuldarlıq aşağıdır və yığılan məhsul daxili tələbatı ödəmir (cədvəl). Bununla yanaşı, iqtisadi rayon ölkədə taxıl məhsulları becərilməsində mühüm yer tutur. Onun əkinlərinin əsas hissəsi Şəki rayonunda yerləşir. Ölkənin dənli və dənli-paxlalı bitki əkinlərinin 13,7%-i iqtisadi rayonun payına düşür. Region üzrə onlar əkin sahələrinin 79,9%-ni tutur, 146,9 min ha sahədə dənli və dənli-paxlalı bitkilər əkilir. Onların 93,6 min hektarını (63,7%) buğda, 36,9 min hektarını (25,1%) arpa, 13,6 min hektarını (9,2%) qarğıdalı əkinləri tutur (xəritə-sxem)[13].

[12] Azərbaycanın regionları - 2019. – Bakı: DSK, – 2020. – 828 s.
[13] Azərbaycanın kənd təsərrüfatı - 2019. – Bakı: DSK, – 2020. – s.189-193.

Cədvəl

Kənd təsərrüfatı məhsulları istehsalı, ton

| Məhsullar | 2000 | 2005 | 2010 | 2013 | 2015 | 2019 |
|---|---|---|---|---|---|---|
| Dənli və paxlalı | 173,0 | 271,2 | 318,3 | 479,4 | 459,2 | 521,0 |
| Buğda | 109,8 | 162,2 | 185,4 | 272,0 | 230,8 | 309,5 |
| Dən üçün qarğıdalı | 20,2 | 54,3 | 62,3 | 94,4 | 90,9 | 86,6 |
| Tütün | 16,9 | 7,1 | 3,3 | 3,5 | 3,5 | 5,6 |
| Şəkər çuğunduru | - | - | - | 2,5 | 0,8 | 3,6 |
| Dən üçün günəbaxan | 0,5 | 0,4 | 0,4 | 0,6 | 1,0 | 0,4 |
| Kartof | 16,3 | 39,6 | 44,9 | 45,5 | 57,0 | 46,1 |
| Tərəvəz | 43,6 | 71,9 | 75,5 | 78,3 | 87,1 | 82,3 |
| Bostan bitkiləri | 15,5 | 23,4 | 24,4 | 20,4 | 20,0 | 17,4 |
| Meyvə və giləmeyvə | 503,1 | 76,9 | 95,7 | 107,6 | 106,8 | 133,6 |
| Üzüm | 4,0 | 5,5 | 8,9 | 15,5 | 12,8 | 10,7 |
| Çay | - | 0,05 | 0,07 | 0,05 | 0,05 | 0,06 |

Mənbə: Azərbaycanın regionları -2013. Bakı, DSK, 2014, s. 241-242.
Azərbaycanın kənd təsərrüfatı - 2019. Баkı: ДSK, 2020, с. 369-429.

*Meyvəçilik* - iqtisadi rayonun əsas ixtisaslaşma sahələrindən biridir. Regionun aqroiqlim ehtiyatları, məhsuldar torpaqları qoz, fındıq, şabalıdla yanaşı, alma və armud becərilməsi üçün də əlverişlidir. Lakin məhsulların saxlama kameraları, daşınma vasitələri yox dərəcəsindədir, məhsuldar növlərin alınması istiqamətində işlər zəif aparılır. Ölkə üzrə meyvə əkinlərinin 32,7%-i, məhsul yığımının 12,2%-i regionun payına düşür. Burada meyvə və giləmeyvənin əkin sahələri 68,8 min ha-ya çatır. Meyvə və giləmeyvə əkinlərinin əsas hissəsi Zaqatala (22,5 min ha), Balakən (13,4 min ha), Qax (12,0 min ha) və Qəbələ (8,8 min ha) inzibati rayonlarında yerləşir. 2015-ci ildən sonra meyvə əkinləri 32,6 min ha-dan çox artmışdır[14]. Yeni əkinlərin əsas hissəsini fındıq bağları tutur. Ona görə ki, məhsula tələbat çoxdur, emal müəssisələri şəbəkəsi yaradılır, məhsulun tədarük qiymətləri münasibdir.

[14] Azərbaycanın kənd təsərrüfatı - 2019. – Bakı: DSK, – 2020, – s. 259.



Xəritə-sxem. İqtisadi rayonda bitkiçilik məhsullarının istehsalı

İqtisadi rayonda günəbaxan, qarğıdalı, tərəvəz əkinləri də geniş sahə tutur. Lakin onlar yerli tələbatı ödəyir.

Kənd təsərrüfatının ikinci mühüm sahəsi olan ***heyvandarlığın inkişafı*** üçün iqtisadi rayonda əlverişli şərait vardır. Heyvandarlıq rayonların təsərrüfat strukturunda əhəmiyyətli yer tutur. Müstəqillik illərində bu sahə tamamilə şəxsi təsərrüfatlara əsaslanır, əsas sahələrinə maldarlıq, qoyunçuluq, baramaçılıq, arıçılıq aiddir. Ölkədə saxlanılan İBMQ-nın 9,7-i, qoyun və keçilərin 9,4%-i, donuzların 44,8%-i, arı ailəsinin 19,5%-i iqtisadi rayonun payına düşür [15]. Vaxtilə region respublikanın mühüm camışçılıq və baramaçılıq zonalarından biri olmuşdur. 2015-ci ildən sonra İBMQ, qoyun və keçilərin sayı azalır. Ona görə ki, məhsulların tədarük qiymətləri və əhalinin əldə etdiyi gəlirlər aşağıdır, yem bazası ilə təminatda problemlər vardır. Bu səbəbdən heyvandarlığın payı bitkiçiliyə nisbətən azdır. Regionda xüsusi ixtisaslaşmış heyvandarlıq komplekslərinin yaradılması məhsul istehsalının artırılmasına imkan verər.

Dissertasiyanın dördüncü fəslində **kənd təsərrüfatının inkişafının prioritet istiqamətləri** müəyyən edilir. Regionun kənd təsərrüfatının inkişafında həyata keçirilən ***Dövlət Proqramlarının*** xüsusi əhəmiyyəti olmuşdur. İqtisadi islahatlar dövründə ipəkçilik, taxılçılıq, meyvəçilik, tütünçülük və heyvandarlığın inkişafı üçün xeyli işlər görülmüşdür. İpəkçiliyin inkişafı üçün tut bağları salınır, barama istehsalının 35-40 min tona çatdırılması vəzifə kimi müəyyən edilmişdir. Bu tədbirlər "Şəki-İpək" ASC-nin xammal ilə təmin edilməsinə imkan verəcəkdir. Dövlət Proqramları çərçivəsində heyvandarlıq kompleksləri, məhsuldarlığın artırılması üçün damazlıq təsərrüfatları qurulur, süni mayalanma işləri aparılır. Şəki, Balakən, Qəbələdə Meyvə-Tərəvəz kombinatları fəaliyyət göstərir, tütün, fındıq əkinləri genişlənir, onların emalı üçün müəssisələr yaradılır.

2009-2013-cü illəri əhatə edən ikinci Dövlət Proqramı üzrə regionda heyvandarlığın inkişafı istiqamətində işlər davam etdirilmişdir. Xaricdən məhsuldar heyvanların gətirilməsi ilə yanaşı, yerlərdə yeni cinslər alınır, baytarlıq məntəqələri yaradılır. Bu

[15] Azərbaycanın kənd təsərrüfatı - 2019. – Bakı: DSK, – 2020, – s. 608-636.

istiqamətdə işlər bitkiçilikdə də aparılır, xüsusi toxumçuluq təsərrüfatları təşkil olunur. Kənd təsərrüfatında məhsul istehsalının artırılması yeni emal müəssisələrinin yaradılması zərurətini qarşıya qoyur. Bu sahədə Zaqatalada qızılgül yağı istehsalı müəssisəsinin fəaliyyəti bərpa edilmiş, Oğuzda Qarğıdalı zavodu qurulmuşdur.

Kənd təsərrüfatının ərzaq məhsulları istehsalında aparıcı yer tutmasını nəzərə alaraq 2008-ci ildə qəbul edilmiş "***Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında***" (2008-2015) bu sahənin inkişafı üçün tədbirlər müəyyən edilmişdir[16]. Onun qəbul edilməsində məqsəd əhalinin normalara uyğun ərzaq məhsulları ilə təmin edilməsi, bu sahədə daxili istehsalın payının artırılmasıdır. Bunun üçün isə kənd təsərrüfatı məhsulları istehsalında dönüş yaradılması tələb olunur. Dövlət Proqramının yerinə yetirildiyi müddətdə torpaq ehtiyatlarından istifadə edilməsi, əkin sahələrinin şirin su ilə təminatı, becərilən kənd təsərrüfatı məhsullarının artırılması, maddi-texniki təminatın yaxşılaşdırılması, mineral gübrələrlə təminat sahəsində xeyli işlər görülmüşdür.

Bitkiçilik sahələrinin inkişaf etdirilməsi üçün Dövlət Proqramında qarşıya qoyulan vəzifələrə taxılçılıq, kartofçuluq, tərəvəzçilik, meyvəçilik, üzümçülük sahələrində məhsuldarlığın artırılması, toxumçuluq təsərrüfatları yaradılması, daha məhsuldar və yerli şəraitə uyğun toxum növlərinin becərilməsinə üstünlük verilməsi, emal müəssisələri şəbəkəsinin qurulması aiddir.

Əhalinin il boyu təzə tərəvəz məhsulları ilə təmin edilməsi üçün istixanaların yaradılması, onların şəbəkəsinin daim genişləndirilməsi tələb olunur. Bunun üçün torpaq sahələri ayrılması, kreditlər verilməsi, məhsulların daxili tələbatı ödəməsi ilə yanaşı, ixrac imkanları da öyrənilməlidir. Əhalinin il ərzində keyfiyyətli ərzaq məhsulları ilə təminatı üçün infrastruktur şəbəkəsi yaradılması, saxlama kameraları və soyuducu anbarları qurulması, logistika xidmətinin təşkili vacib amillərdir. Regionlarda məhsulların saxlanması imkanları olmadığına görə onlar xarab olur, əksər

---

[16] Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı (2008-2015). – Bakı: – 2008, – 51 s.

hallarda digər ərazilərdən daşımaq lazım gəlir. Onların regionlarda ehtiyat fondunun yaradılması üçün tədbirlər görülməlidir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində heyvandarlıq sahələrinə aid məhsulların istehsalı da mühüm əhəmiyyət kəsb edir. Bu sahələrin istehsal etdiyi məhsulların həcminin artırılması, məhsuldar heyvan cinslərinin sayının çoxaldılması, süni mayalanma aparılması, bu yol ilə alınan mal-qaradan istifadə edilməsi, yemi bitkiləri əkinlərinin genişləndirilməsi əsas inkişaf istiqamətləri kimi müəyyən edilmişdir. Lakin Dövlət Proqramının yerinə yetirilməsi müddəti başa çatmış olsa da, nəzərdə tutulan vəzifələrin bir çoxu həll edilməmiş qalır. Onlar Strateji Yol xəritələrinin yerinə yetirilməsi ilə öz həllini tapa bilər.

Dissertasiyada ***kənd təsərrüfatının səmərəli ərazi təşkili problemləri və onların həlli yolları*** xüsusi bölmədə öyrənilir. Göstərilir ki, regionların sosial-iqtisadi inkişafında, onların təbii-iqtisadi potensialından istifadə edilməsində kənd təsərrüfatı əhəmiyyətli rol oynayır. Bu sahə kənd məskunlaşması ilə birlikdə ölkənin əksər ərazilərinə yayılır. Ona görə böyük miqdarda əhali üçün məşğuliyyət sahəsi və gəlir mənbəyidir.

Kənd təsərrüfatının səmərəli ərazi təşkili prosesində həlli vacib olan məsələ torpaqlardan səmərəli istifadə edilməsidir. Fəaliyyət göstərən kəndli təsərrüfatlarının intensiv inkişaf imkanları məhdud olduğuna görə məhsul istehsalı ekstensiv üsullar ilə artırılır, suvarma açıq üsul ilə aparıldığına, texniki təminat aşağı səviyyədə olduğuna görə eroziya gedir, şoranlaşma baş verir, əkinlər yararsız hala düşür. İqtisadi rayonun Acınohur düzü, Xocaşen və Daşüz silsilələrinin alçaq dağlıq və dağətəyi ərazilərinin istifadə edilməsi vacib vəzifə kimi qarşıda durur. Bunun üçün suvarma şəbəkəsinin yaradılması tələb olunur.

Torpaqlardan səmərəli istifadə edilməsinin əsas istiqamətlərindən biri kənd təsərrüfatına yararlı sahələrin qorunması, təyinatı üzrə istifadə edilməsi, qeyri-kənd təsərrüfatı məqsədlərlə istifadənin qarşısının alınmasıdır. Kənd təsərrüfatının inkişaf etdirilməsinin əsas istiqamətlərindən biri ixtisaslaşmış istehsal obyektlərinin yaradılmasıdır. Artıq ölkənin ayrı-ayrı regionlarında taxılçılıq, heyvandarlıq, tərəvəzçilik sahələrində belə təsərrüfatlar

qurulur, onlar aqroparklar formasında fəaliyyət göstərir. Belə təsərrüfatlarda ixtisaslı kadr potensialından istifadə edilməsi, yeni toxum növlərinin əkin sahəsi, heyvanların baş sayının artırılması hesabına yüksək məhsuldarlıq əldə olunur. İqtisadi rayonda meyvəçilik, tütünçülük, baramaçılıq, çayçılıq sahələrində aqroparkların təşkili mümkündür. Onlar mövcud kəndli təsərrüfatlarının birləşdirilməsi hesabına təşkil edilə bilər.

Məhsuldarlığın artırılması kənd təsərrüfatının inkişafında əsas vəzifələrdən biridir. Bunun üçün ilk növbədə yerli şəraitə uyğun növlərin alınması vacibdir. Bu vəzifənin həyata keçirilməsi üçün bitkiçilikdə xüsusi olaraq toxumçuluq təsərrüfatları qurulur. 2009-2013-cü illərdə ölkədə 56 belə təsərrüfat yaradılmışdır, onların 29-u Şəki-Zaqatala iqtisadi rayonunun payına düşür. 2014-2018-ci illərdə onların sayı 15-dən çox olmuşdur.

Heyvandarlıqda isə məhsuldar heyvan cinsləri alınıb gətirilməsi ilə yanaşı, süni mayalanma işləri aparılır, xüsusi fermalar təşkil olunur. Son dövrlərdə kənd təsərrüfatı tütünçülük, çayçılıq, baramaçılıq və çəltikçilik kimi sahələrinin inkişafı üzrə qəbul edilmiş Dövlət Proqramlarının yerinə yetirilməsi ölkənin iqtisadi inkişafında regionun payının artırılması istiqamətində mühüm addımlar hesab olunur.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının müasir ərazi təşkilinin tədqiqi əsasında aşağıdakı nəticələri söyləmək olar:

1. Müstəqilliyin ilk illərində regionun kənd təsərrüfatında aparılan islahatlar dövründə onun sahə strukturunda mühüm dəyişikliklər olmuşdur. Nəticədə strateji əhəmiyyət kəsb edən, ixrac potensialına malik, emal müəssisələrinin yaradılmasına kömək edən tütünçülük, çayçılıq, heyvandarlıqda baramaçılıq kimi sahələrin rolu aşağı enmişdir. Torpaqların kiçik paylar formasında əhaliyə paylanması mütərəqqi üsulların tətbiq edilməsinə, aqrotexniki qaydalara uyğun məhsul becərilməsinə, məhsuldar toxumlar və heyvan cinslərindən istifadə olunmasında çətinliklər yaradır. Ona görə hələ də bu sahədə məhsuldarlıq xeyli aşağıdır, əhalinin

gəlirlərində kənd təsərrüfatının rolu azdır, əksər məhsullar üzrə əhalinin tələbatı ödənilmir [1, 9].

2. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qəbul edilmiş Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin çoxu yerinə yetirilməmiş qalır. Bu vəzifənin yerinə yetirilməsi üçün kənd təsərrüfatının taxılçılıq, üzümçülük, çayçılıq, şəkər çuğunduru, yağlı bitkilər becərilməsi, həmçinin heyvandarlıq sahələri üzrə ixtisaslaşmış təsərrüfatların yaradılması, məhsuldar növlərin tətbiqi tələb olunur [3, 12].

3. İqtisadi rayonun ölkənin mühüm meyvəçilik regionlarından biri olduğunu nəzərə alaraq burada çoxillik əkinlər geniş ərazi tutur. İqtisadi rayonda çoxillik əkinlər ümumi kənd təsərrüfatına yararlı torpaqların 10,1%-ni əhatə edir. Bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin görülməsi, suvarma işlərinin düzgün aparılması, torpaqların eroziya və deqradasiyadan mühafizə edilməsi vacibdir. Kənd təsərrüfatında tədarük və emal müəssisələrinin təşkili regionun iqtisadi potensialının artırılması üçün mühüm əhəmiyyət kəsb edir [7].

4. İqtisadi rayonda sənaye zəif inkişaf etmişdir. Ona görə sənayenin strukturunda əsas sahələr olan yüngül və yeyinti sənayesi sahələrinin payı kiçikdir. Burada ipəkçilik, toxuculuq, gön-dəri məhsulları istehsalı üçün zəngin xammal bazası olsa da, bu imkanlardan zəif istifadə edilir. Yeyinti sənayesi sahəsində ayrı-ayrı sahələr üzrə müəssisələr fəaliyyət göstərir. Lakin bu müəssisələrdə iş yerləri azdır, əksəriyyət mövsümi xarakter daşıyır. Ona görə ASK-ya daxil olan yüngül və yeyinti sənayesi sahələrinin inkişafını təmin etmək üçün yeni obyektlər şəbəkəsi yaradılması, kənd təsərrüfatında məhsuldarlığın artırılması ilə onların xammallar ilə təmin edilməsi vacibdir. Bu tədbirlər şəhərlər, qəsəbələr və kəndlərin iqtisadi bazasının formalaşmasına, yeni iş yerlərinin açılmasına, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasına, ölkənin iqtisadi inkişafında iqtisadi rayonun rolunun artırılmasına şərait yaratmış olar [13].

5. Respublikada kənd təsərrüfatının maddi-texniki bazasına aqrar islahatlar dövründə ciddi ziyan dəymişdir, onların texniki təminatı dağıdılmışdır, çox hissəsinin istismar müddəti keçmişdir. Sonrakı dövrlərdə dövlət vəsaitləri hesabına maşın, avadanlıq,

mineral gübrələr alınmışdıt. Lakin onlar əvvəlki illərlə müqayisədə xeyli azdır, mövcud tələbatdan geri qalır. Ona görə problemin həll edilməsi üçün alınan texnika, maşın və avadanlıqların güzəştli şərtlərlə fermerlərə satılması, onların yığım müəssisələrinin yaradılması, mineral gübrələrin istehsalının təşkili vacibdir.

6. Son vaxtlarda regionlarda kənd təsərrüfatının inkişafında əhəmiyyəti artan aqrobiznes mərkəzlərinin sayının artılması lazım gəlir. Bu tiplı təsərrüfatlarda kənd təsərrüfatı məhsullarının becərilməsi ilə yanaşı, saxlanması, daşınması və emalının da təşkili sahənin inkişafında əhəmiyyətini artırır. Ona görə regionda aqrobiznes təsərrüfatlarının yaradılmnasında dövlət və şəxsi vəsaitlərin cəlb edilməsi mümkündür.

7. İqtisadi rayonda heyvandarlıq sahələri kənd təsərrüfatının strukturunda əhəmiyyətli yer tutur. Bura daxil olan sahələrin inkişafı üçün əlverişli şərait vardır. Lakin son illərdə İBMQ, qoyun və keçilərin sayı azalmağa doğru gedir. Vaxtilə region ölkədə camışçılığın əsas mərkəzlərindən biri olmuşdur. Lakin müstəqillik illərində onların sayı bir neçə dəfə azalmışdır. Oxşar vəziyyət donuzçuluğa da aiddir. Ona görə ət və süd məhsulları istehsalında camışçılığın rolunun artırılması üçün onların sayının artırılması, şəxsi təsərrüfatlarda bu sahənin inkişafına şərait yaradılması tələb olunur.

## Dissertasiya mövzusu üzrə çap olunmuş elmi işlər


1. Ağabalayev, Q.M. Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının sahə strukturunun dəyişməsi // – Bakı: Azərbaycan CC əsərləri, “Coğrafiya və təbii resurslar” jurnalı, – 2015. №2, – s. 83-86.
2. Ağabalayev, Q.M. Şəki-Zaqatala iqtisadi rayonunda torpaq ehtiyatları və onlardan istifadə edilməsi // – Bakı: ADPU Xəbərləri, Təbiət elmləri bölməsi. – 2015. № 3, – s. 48-52.
3. Ağabalayev, Q.M. Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının ərzaq təhlükəsizliyinin təminatında rolu // “Coğrafiya: nəzəriyyə praktika və innovasiya” mövzusunda konfrans, – Bakı: BDU, – 2015, – s. 263-270.

4. Ağabalayev, Q.M. Müasir iqlim dəyişkənliklərinin kənd təsərrüfatı və ərzaq təhlükəsizliyinə təsiri // “Aqrar elmin və təhsilin innovativ inkişafı” mövzusunda Beynəlxalq elmi-praktik konfrans, III cild. – Gəncə: – 23-24 oktyabr, 2015. – s. 174-177.
5. Ağabalayev, Q.M. Zaqatala rayonunun kənd təsərrüfatında iqtisadi göstəricilərin təhlili // – Gəncə: Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri, – 2016. №2. – s. 180-184 (S.S.Hüseynova ilə birlikdə).
6. Ağabalayev, Q.M. Şəki-Zaqatala iqtisadi rayonunda taxılçılığın inkişaf problemləri // “Azərbaycan regionlarının coğrafi problemləri” mövzusunda respublika elmi-praktiki konfransı, – Bakı: BDU, – 2016, – s. 86-89.
7. Ağabalayev, Q.M. Şəki-Zaqatala iqtisadi rayonunda meyvəçiliyin müasir vəziyyəti və inkişaf perspektivləri // Azərbaycan Cğrafiya Cəmiyyətinin əsərləri, “Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri” mövzusunda elmi konfrans, – Bakı: 2016, – s. 393-402.
8. Агабалаев, Г.М. Развитие туристической индустрии в севере-западном регионе Азербайджанской Республики // «Сервису и туризму – инновационное развитие» материалы VIII международной научно-практической конференции, – Санкт-Петербург: 25 марта – 2016 г, – с. 81-84. (соавтор З.Н.Эминов)
9. Агабалаев, Г.М. Изменение структуры сельского хозяйства и проблемы развития сельского расселения в Азербайджане // «География и геоэкология на службе науки и инновационного образования» материалы XI Международной научно-практической конференции, Выпуск 11, – Красноярск: 22 апрел – 2016, – с. 127-129 (соавтор Л.И.Алиева).
10. Ağabalayev, Q.M. Azərbaycanda məskunlaşma areallarının formalaşmasına su hövzələrinin təsiri // “Su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda beynəlxalq

elmi-praktiki konfrans. II hissə, – Bakı: 15-16 mart – 2017. – s. 277-281 (Z.N.Eminov, X.A.Bədəlova, F.R.Bağırova ilə birgə).

11. Ağabalayev, Q.M. Balakən rayonunun kənd təsərrüfatında iqtisadi göstəricilərin panel təhlili // – Gəncə: Azərbaycan Dövlət Aqrar Universititetinin elmi əsərləri, – 2017. №2. – s. 200-205 (S.S.Hüseynova ilə birlikdə).
12. Агабалаев, Г.М. Изменение отраслевой структуры сельского хозяйства в Шеки-Закатальском экономическом районе и проблемы обеспечения продовольственной безопасности // – Тернопіл: Наукові Записки Тернопілського національного педагогічного університету імені Володимира Гнатюка, – 2018. №1, Випуск 44, – с. 96-101.
13. Ağabalayev, Q.M. Şəki-Zaqatala iqtisadi rayonunda kənd təsərrüfatının səmərəli ərazi təşkili problemləri // “Bazar iqtisadiyyatı şəraitində torpaq idarəçiliyi: nailiyyətlər və müasir çağırışlar” mövzusunda konfrans. – Bakı: – 2018, – s. 291-301.
14. Ağabalayev, Q.M. Kiş çayının Damarçın qolu hövzəsinin sel təhlükəsi haqqında // “Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri” Beynəlxalq elmi konfrans. – Bakı, – 2019, – s. 352-355 (Y.R.Rəhimov ilə birlikdə).
15. Агабалаев, Г.М. Экологическое состояние притока Дамарчин реки Киш и опасность селевых потоков // – Bakı: ANAS Transactions, – 2019. №2. – с. 88-92 (соавтор Я.Р.Гагимов).
16. Agabalayev, Q.M. Characterıstıc features of the agrıcultural development durıng the independence years // – Київ “Географія та туризм” науковий журнал, Випуск 54, – 2019. – с. 79-84.
17. Ağabalayev, Q.M. Azərbaycanın Şəki-Zaqatala bölgəsinin təbii resurslarının landşaft-diaqnostik və iqtisadi xüsusiyyətləri. – Şəki: – 2020. – 372 s. (H.Mustafabəyli, Y.Rəhimov ilə birlikdə)

Dissertasiyanın müdafiəsi 22 oktyabr 2021-ci il tarixində saat 14:00-da Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.23 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1143, Bakı ş., H.Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.
E-mail: institute@geograph.science.az

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları www.igaz.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 sentyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: ___ 2021
Kağızın formatı: A5
Həcm: 39171
Tiraj: 100